# Azərbaycan son seçkilərlə də demokratik ənənələrə sadiqliyini təsdiqlədi



***Konstitusiya Məhkəməsi Milli Məclisə keçirilən seçkilərin nəticələrini təsdiq etdi. Parlament seçkilərində hakim Yeni Azərbaycan Partiyasının qələbəsi hər şeydən öncə seçicilərin Prezident İlham Əliyevə və heç şübhəsiz ki, onun həyata keçirdiyi islahatlar kursuna və yürütdüyü siyasətə dərin inamın təzahürü kimi dəyərləndirilməlidir. Bu da təsadüfi deyildir. Azərbaycanın hərtərəfli inkişafı istiqamətində möhtərəm Prezidentimiz tərəfindən bu günə qədər görülən bütün işlər insanları bir daha əmin edir ki, o, Azərbaycanın alternativsiz lideri, insanların dərin inam və rəğbət bəslədiyi siyasi xadimdir.***

Eyni zamanda, insanlarda o inam da mövcuddur ki, yeni tərkibdə fəaliyyətə başlayacaq parlament ölkəmizdə uğurla həyata keçirilən islahatların mühüm tərkib hissəsi olmaqla kifayətlənməyəcək, Azərbaycanın inkişafı və yüksəlişi naminə böyük töhfələrə imza atacaq.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı”nda xalqın azad, demokratik seçki yolu ilə hakimiyyəti formalaşdırmaq hüququ təsbit olunmuşdur. Bu sənədin 1991-ci ildə qəbul olunmasına baxmayaraq, Azərbaycanda demokratik seçkilərin keçirilməsi 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu. Belə ki, ulu öndərin rəhbərliyi ilə hazırlanaraq, ümumxalq səsverməsi yolu ilə 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün başlıca prinsip müəyyənləşdirdi. Həmin siyasi məktəb bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Elə bunun məntiqi təzahürüdür ki, fevralın 9-da keçirilən seçkilərə olan maraq, sadəcə, xalq deyil, beynəlxalq aləm tərəfindən də böyük idi. İndiyədək keçirilən seçkilərə nəzər yetirsək, şahidi oluruq ki, uğurla başa çatan proses bu sahədə Azərbaycanın təcrübəsini getdikcə zənginləşdirmişdir. Bu faktın özü onu sübut edir ki, bu il keçirilən parlament seçkiləri də Azərbaycanın növbəti demokratik seçki nümunələrindən biri kimi tarixə yazıldı. Buna görə də Azərbaycanın seçki təcrübəsi müxtəlif ölkələr tərəfindən də öyrənilir.

Mərkəzi Seçki Komissiyasından verilən məlumata görə, 1314 iddiaçı deputat mandatı qazanmaq uğrunda mübarizə apardı. Bu rəqəmin özü isə bir daha onu sübut edir ki, xalq arasında seçki prosesinə dərin inam və maraq var idi. Daha bir statistik rəqəm akkreditasiyadan keçmiş beynəlxalq müşahidəçilərin sayı ilə bağlı idi ki, bu da 58 ölkədən 59 təşkilatı təmsil edən 883 nəfər idi. Böyük Britaniyadan olan beynəlxalq müşahidəçi Nabil Ayad keçirilən seçkilər və müşahidəçilər üçün yaradılan şəraitlə bağlı digər ölkələrlə Azərbaycanı müqayisə edərkən bildirdi ki, bu proses bizdə ən yüksək səviyyədə idi. Həmsöhbətim bir çox ölkədə beynəlxalq müşahidəçi kimi iştirak etməsinə baxmayaraq, qeyd edirdi ki, Azərbaycan ilk ölkədir ki, müşahidəçilərə onların hüquq və öhdəlikləri ilə bağlı məlumatlandırıcı vərəqə paylanmışdır. Birtaniyalı müşahidəçi insanlara qarşı hər hansı bir təzyiq və məcburetmə hadisəsinin yaşanmamasının, mənfi faktların qeydə alınmamasının, tam əksinə, insanların könüllü olaraq seçki prosesinə töhfə verməsinin onun təcrübəsində bir ilk olduğunu əlavə edib. Bundan əlavə, bildirib ki, Azərbaycan gənc dövlət olmasına baxmayaraq, seçki vərdişini müvəffəqiyyətlə formalaşdırıb ki, bu da seçki prosesinin axıcı olmasını təmin etmişdir.

Böyük Britaniyadan olan digər beynəlxalq müşahidəçi Barri Tomalin deyib: “Seçki məntəqəsində səsverməyə gələnləri, habelə buna sərf edilən vaxtı qeyd edən iyirmiyə qədər müşahidəçinin olması təcrübəmdə ilkdir. Eyni zamanda, orta hesabla seçki prosesini müşahidə edənlərin 80 faizinin qadın olması onu göstərir ki, Azərbaycanın seçki təcrübəsindən öyrənilməsi çox məqamlar var.”

İspaniyadan olan beynəlxalq müşahidəçi Migel Alvares seçki günü ilə bağlı olan əsas diqqət çəkən məsələləri üç xüsusi başlıq altında sadalayıb. Bunlardan birincisi, qadınların seçki məntəqəsində rolu, ikincisi, əzmlə bütün seçki günü çalışan yerli müşahidəçilər və nəhayət seçki məntəqələrində yüksək təşkilatçılığın olması. Digər ölkələrdə də seçki prosesini izləməsinə və bu sahədə illərlə olan təcrübəsinə baxmayaraq, bütün bu amillərə ilk dəfə məhz Azərbaycanda rast gəlməsi onda yaxşı mənada təəccüb doğurub. Bu isə onu deməyə əsas verir ki, artıq beynəlxalq aləmdə də Azərbaycan gənc və müstəqil dövlət olmasına baxmayaraq, qısa zaman kəsiyində seçki üçün demokratik zəmin, zəngin təcrübə və hüquqi baza yaratmağa müvəffəq olmuşdur.

Qürurverici haldır ki, respublikamızın seçki qanunvericiliyi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun hazırlanmış demokratik sənəd kimi dəyərləndirilir. Hazırda ölkəmizdə bütün sahələr üzrə demokratik cəmiyyətin mövcudluğunun şahidi oluruq. Bunu parlament seçkilərinə qatılmış namizədlərin və müxtəlif siyasi partiyaların sayı da təsdiq etdi. Belə ki, 9 fevral parlament seçkilərində iştirak etmək üçün 2 min 431 nəfər müraciət etmişdir. Bundan əlavə, fəal şəkildə təbliğat-təşviqat kampaniyası aparan namizədlər onlar üçün yaradılmış demokratik və ədalətli şəraitdən razılıqlarını ifadə etdilər.

Seçkilərin azad və ədalətli keçirilməsi üçün MSK tərəfindən ən yüksək standartlara cavab verən müxtəlif üsul və metodlar, əyani vəsaitlər hazırlandı. Bu üsullara barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi, məntəqələrdə veb-kameraların quraşdırılması, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından maksimum səviyyədə yararlanma, təlimat, izah və yaddaş kitabçalarının hazırlanması və digər yenilikləri göstərmək olar. Seçki prosesini dəyərləndirən beynəlxalq müşahidəçilər bu metodların öz ölkələrində də tətbiq olunması barədə təklif verəcəklərini bəyan etdilər.

***Şəbnəm HƏSƏNOVA,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı, politoloq***

Xalq qəzeti 2020.- 8 mart.- S.2.